# AZƏRBAYCAN–ŞƏRQİ AVROPA MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA ALİ MƏKTƏBLƏRARASI ƏMƏKDAŞLIĞIN ROLU (BDU-nun timsalında) I məqalə

**H.N.MƏMMƏDOV**
*Bakı Slavyan Universiteti*

Mədəni əlaqələr Azərbaycanın Şərqi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərinin əsas sahələrindən birini təşkil edir. Ali təhsil müəssisələri arasında mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq Azərbaycan - Şərqi Avropa qarşılıqlı mədəni əlaqələri sistemində önəmli yer tutaraq, mədəniyyət sahəsində qarşılıqlı münasibətlərin inkişafına böyük təsir göstərir, azərbaycanlılar və rus, ukrayna, polyak, çex, bolqar, rumın və başqa xalqlar arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə təkan verir, universitetlərin yaxınlaşmasını stimullaşdırır. Mədəniyyət, elm, təhsil, insəıənət, səhiyyə, idman, turizm və digər mədəni -humanitar sahələrdə Azərbaycan və Şərqi Avropa ölkələri arasnda ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün müvafiq siyasi - hüquqi bazanın olması ali məktəblər arasında əməkdaşlığı şərtləndirən əsas səbəb və amillərdən biridir. Bütün bunlar problemin mühüm elmi və aktuallıq kəsb etdiyini göstərir.

Ali məktəblər arasında qarşılıqlı əlaqələr Azərbaycan Respublikası ilə Şərqi Avropa ölkələri arasında təhsil, elm, mədəni əməkdaşlıq haqqında dövlətlərarası razılaşmalar, sahələrarası sazişlər və ali təhsil müəssisələri arasında bağlanmış birbaşa ikitərəfli müqavilələr əsasında həyata keçirilir.

Azərbaycan və Şərqi Avropa dövlətləri - Rumıniya[1, 174-175], Bolqarıstan [2, 239-242], Ukrayna [3, 152], Polşa [4, 128], Belarus [5, 582-583], Rusiya [6, 317; 7; 8, 363; 9, 3], Moldova [5, 585-586], Latviya [5, 607; 17], Litva [5, 610; 17], Estoniya [5, 611; 17] - arasında mədəni əməkdaşlığa aid müddəaların olduğu ikitərəfli dövlətlərarası müqavilələr mövcuddur.

Elm və təhsil sahəsində qarşılıqlı əməkdaşlığın hüquqi bazasını təşkil edən əsas sənədlər sırasına Azərbaycan Respublikası Təhsil Nazirliyi və Şərqi Avropa respublikalarının Təhsil nazirlikləri arasında,həmçinin Azərbaycan Respublikası Hökuməti və Şərqi Avropa respublikalarının hökumətləri arasında elmi-texniki əməkdaşlıq haqqında aşağıdakı ikitərəfli müqavilə və sazişlər aiddir:

1) Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası ilə Moldova Respublikası Ali Attestasiya Komissiyası arasında Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının və Moldova Respublikası Attestasiya Komissiyasının alimlik dərəcələrinə və elmi adlara dair verdikləri sənədlərin (diplomların, attestatların) ekvivalentliyinin qarşılıqlı surətdə etibarlı saymaq haqqında Saziş. Bakı, 18 oktyabr 1993; 2).Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti

arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş. Buxarest, 2 iyul 1995; 3).Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş. Moskva, 25 iyul 19958; 4) Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş. Kiyev, 22 dekabr 1995; 5). Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ukrayna Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Kiyev, 24 mart 1997; 6). Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Moskva şəhərinin Təhsil Komitəsi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 13 iyun 1997; 7). Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 27 noyabr 1997; 8). Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 27 noyabr 1997; 9). Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında elmi adların və təhsil sənədlərinin qarşılıqlı tanınması və ekvivalentliyi haqqında Saziş. Bakı, 16 mart 2000;10). Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 9 avqust 2001;11). Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rusiya Federasiyası Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Bakı, 1 fevral 2002;12). Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin qarşılıqlı tanınması sahəsində əməkdaşlıq haqqında Saziş. Moskva, 23 sentyabr 2002;13). Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Buxarest, 11 oktyabr, 2004; 14). Azərbaycan Respublikası Təhsil Nazirliyi və Latviya Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Riqa, 4 oktyabr 2006; 15). Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Minsk, 17 oktyabr 2006 və s.[10].

Qeyd etmək lazımdır ki, 2003-cü il 3-4 iyul tarixlərində GUÖAM-ın Yalta sammiti gedişinə imzalanmış "GUÖAM-a üzv ölkələrin təhsil nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında Müqavilə" və həmçinin, "Elm və texnika sahəsində GUÖAM-a üzv ölkələrin Elmlər Akademiyaları arasında əməkdaşlıq haqqında Protokol" bu sahədə qarlşılıqlı münasibətlərin yaranmasına geniş imkanlar açmışdır. . Əlaqələr MDB çərçivəsində də inkişaf edir.

Yuxarıda qeyd olunan müqavilə və sazişlərdə yanaşı, Azərbaycan və Şərqi Avropa ölkələrinin müxtəlif ali təhsil müəssisələri arasında birbaşa bağlanmış ikitərəfli əməkdaşlığa dair razılaşmaları xüsusilə qeyd etmək lazım gəlir. Azərbaycan və Şərqi Avropa ölkələrinin tərəfdaş ali təhsil müəssisələri arasındakı əməkdaşlıq müqavilələri bir sıra vəzifələrin həyata keçirilməsini nəzərdə tuturdu:a) müəllim, elmi əməkdaş, aspirant, magistr və tələbələrin mübadiləsi; b) müəllim və elmi işçilərin ixtisaslarının artırılmasına qarşılıqlı yardım; v)qabaqcıl tədris metodları sahəsində təcrübələrin mübadiləsi; q) qarşılıqlı maraq doğuran sahələr üzrə elmi əməkdaşlığın yaradılması; d) elmi nəşrlərin, metodik material və müxtəlif faydalı sənədlərin mübadiləsi; e) müştərək tədqiqatlar, ikitərəfli birgə elmi simpozium, seminar və konfransların təşkili; ə) elmi layihə və proqramlarda tərəflərin birgə iştirakı; c) elmi

kitabxanalar arasında sıx əlaqənin yaradılmasına səy göstərmək; p) tərəfdaş universitetin fəaliyyəti haqqında öz bölgəsinin ictimaiyyətini məlumatlandırmaq və s. Azərbaycanın ali təhsil müəssisələrindən Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti Şərqi Avropa ölkələrinin universitetləri ilə daha sıx əlaqə telləri qura bilmişlər. Azərbaycanın Avropa elm və təhsil məkanında tanınan nüfuzlu ali təhsil ocaqlarından biri Bakı Dövlət Universitetidir. Bu məkanda elə bir proqram, yaxud inteqrasiya prosesi yoxdur ki, onlarda BDU hər hansı bir dərəcədə iştirak etməsin.Bakı Dövlət Universiteti qloballaşan dünyada elm və təhsil sahəsində müşahidə edilən prosesləri izləyir, onlarda iştirak etmək üçün müəyyən edilmiş strategiyaya malikdir. Hazırda Bakı Dövlət Universiteti dünyanın 50-dən artıq aparıcı universiteti ilə ikitərəfli əməkdaşlıq edir[11]. Şərqi Avropa universitetləri ilə ikitərəfli əməkdaşlıq BDU - nun beynəlxalq əlaqələrinin əsas istiqamətlərindən birini təşkil edir. Belə ki, BDU Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (12 fevral 2000), Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu, Sankt-Peterburq Dövlət Universiteti, Rusiya Dövlət Humanitar Universiteti (18 may 2007), Rusiya Elmlər Akademiyasının A.Arbuzov ad. Orqanik və Fiziki Kimya Elmi Mərkəzi, Həştərxan Dövlət Universiteti(12 fevral 2007); Ukraynanın T.Şevçenko adına Ukrayna Milli Universiteti (23 mart 2000), Donetsk Dövlət Universiteti (24 mart 2000), Heydər Əliyev ad. Sosial Elmlər İnstitutu, Dnepropetrovsk Milli Universiteti, İ.Franko ad. Lvov Milli Universiteti, Vinniski Dövlət Texniki Universiteti(07 oktyabr 2008); Rumıniyanın Konstansa-Ovidius Universiteti, Buxarest Universiteti, Ployeşti Neft-Qaz Universiteti, Buxarestin Lazer, Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutu; Rolşanın Varşava Universiteti (29 may 2008); Belarusun Belarus Dövlət Universiteti(23 mart 2000) və digər ali təhsil ocaqları ilə ikitərəfli əməkdaşlıq müqavilələri əsasında əməkdaşlıq edir.[12] Qeyd olunan universitetlərlə əməkdaşlıq müqavilələri əsasında namizədlık və doktorluq dissertasiyalarına birgə rəhbərlik, tədris təcrübəsinin, birgə elmi konfrans və simpoziumların təşkili, elmi tədqiqatların, dərslik və metodik vəsaitlərin birgə işlənməsi, elmi informasiya mübadiləsi, elmi kitabxanalar arasında əlaqələr həyata keçirilir. 2001-2004-cü illərdə universitetin 51 nəfər nümayəndəsi (bakalavr, magistrant, aspirant) təhsillərini Moskva Dövlət Universitetində davam etdirmişlər. Ukrayna Dövlət Universitetinin 12 tələbəsi 2003-cü ildə bir semestr filologiya fakültəsində, Moskva Dövlət Universitetinin coğrafiya fakültəsinin müəllim və tələbələrinin 22 nəfərdən ibarət qrupu 2005-ci ildə iki həftə ərzində universitetdə tədris təcrübəsində olmuşlar. Ümumiyyətlə, Rusiyanın Moskva Dövlət və Kazan Dövlət, Ukraynanın T.Şevçenko ad. Ukrayna Milli Universitetlərində və Heydər Əliyev ad. Sosial Elmlər İnstitutunda və A.Arbuzov ad. Orqanik və Fiziki Kimya Elmi Mərkəzində əməkdaşlıq müqaviləsinə əsasən BDU-nun tələbə və aspirantları təhsillərini davam etdirirlər. Moskva Dövlət Universitetinin coğrafiya və biologiya fakültələrinin tələbələri müntəzəm olaraq 2 həftədən bir ay müddətinə qədər Azərbaycan Hirkan Milli Parkının və Qızıl-Ağac qoruğunun ərazisində tədris təcrübəsini keçirlər. MDU-nun metodik şurası ilə yeni dərslik və metodik vəsaitlərin işlənməsi üzrə uğurlu əməkdaşlıq edilir.Moskva Dövlət Universiteti ilə kimya üzrə, Rumıniyanın Konstansa–OvidiusUniversiteti ilə birgə elmi konfranslar təşkil edilmişdir. T.Şevçenko adına Ukrayna Kiyev Milli Universitetinin «Azərbaycan dili və ədəbiyyatı ixtisası» tədris olunan şərqşünaslıq fakültəsində BDU–dan yeni

ədəbiyyat, dərslikvə metodik vəsaitlər göndərilmiş, müvafiq mütəxəssislər göndərilmişdir. Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» fakültəsinin 7 nəfər III kurs tələbəsi (Heydərova Afiqə Tofiq qızı, Nurmetova Xalidə Saleh qızı, Badanina Natalya Aleksandrovna, Hidayətov Fərid Əlihüseyn oğlu, Muradova Nərgiz Qasım qızı, Nağıyeva Günel Rauf qızı, Əliyev Fərid Bəxtiyar oğlu) 21-25 aprel 2003-cü il tarixlərində Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu tərəfindən təşkil edilmiş «MDB: beynəlxalq münasibətlərin aktual problemləri» mövzusunda keçirilmiş Beynəlxalq konfransda iştirak etmişlər [13].

Universitetdə kimya, fizika, tətbiqi riyaziyyat və kibernetika, bilologiya fakültələrində nanomateriallar, nanotexnologiyalar sahəsidə aparılan elmi tədqiqatların əlaqələndirilməsi, intensivləşdirilməsi və genişləndirilməsi məqsədi ilə Nanoaraşdırma Mərkəzi yaradılmışdır[14]. 2007-ci ildə BDU-nun Fizika Problemləri ETİ-nin əməkdaşları Q.M.Bayramov (layihənin rəhbəri) və A.R.İmaməliyev, həmçinin «Yarımkeçiricilər fizikası» kafedrasının professoru f.r.e.d.V.M.Salmanov AMEA-nın Fizika institutu ilə birlikdə Ukrayna Elm və Texnologiya Mərkəzinin maliyyə dəstəyi ilə qrant müsabiqəsinin qalibi olmuşlar. «Yeni növ foton tipli cihazların yaradılması üçün kolloid-maye kristall kompozitlərin optiki xassələrinin tədqiqi» adlı layihə (№4172) 2007-2010 illər ərzində həyata keçiriləcəkdir. Həmin ildə BDU-nun NANO Araşdırmalar Mərkəzində Ukrayna Elm və Texnologiya Mərkəzinin maliyyə dəstəyi ilə «Polimer matrisdə formalaşdırılmış halkogenid yarımkeçirici nanohissəciklərdə ion mübadiləsi və diffuziya prosessləri (№3486) və «Teflon tullantılarının utilizasiyası beynəlxalq terrorizmlə mübarizə vasitəsi kimi (№3840») adlı layihələri üzrə elmi-tədqiqat işlər davam etdirilmişdir. Mərkəzdə Ukrayna Elm və Texnologiya Mərkəzinə «Təbabətdə tətbiq oluna bilən nanohissəciklərin bioloji membranlarla qarşılıqlı təsiri» (biologiya fakultəsi və Xəzər Universiteti ilə birgə) və «Polimer və Polimer tullantıları əsasında tullantı sularının təmizlənməsi üçün multifunksional sorbentlərin hazırlanma texnologiyasının inkişafı» (kimya fakultəsi ilə birgə) adlı layihələr hazırlanıb təqdim edilmişdir [15]. Mərkəzin əsas vəzifələrindən biri də Universitetin Rumıniyanın Konstansa-Ovidius Universiteti və Buxarest Lazer, Plazma və Radiasiya Fizikası Milli İnstitutu arasında nanotexnologiyalar, nanomateriallar üzrə bağlanmış üçtərəfli sazişin həyata keçirilməsidir. BDU–nun NANO mərkəzi Rusiyanın Zelenoqrad şəhərinin elmi araşdırmalar NANO – mərkəzləri ilə də son 3 ildə sıx əməkdaşlıq yaratmışdır. Bu layihələr çərçivəsində BDU-da yeni laboratoriyalar açılmış müasir avadanlıqlar alınmış və universitetin müəllim və tələbələri müxtəlif təlim kurslarında iştirak etmişlər. 2008–2009-cu tədris ilində BDU-da 12 ölkədən, o cümlədən Belorus, Rusiya Federasiyası və Ukraynadan 1249 nəfər əcnəbi tələbə təhsil almışdır.

BDU–nun rəsmi qonağı olmuş bir çox tanınmış dövlət və ictimai-siyasi xadimlər, o cümlədən Ukrayna Ali Radasının sədri V.M.Litvin (28.02.2004), Latviya prezidenti Vike–Freyberqa Vaira (04.10.2005), Litva prezidenti Valdas Adamkus (09.06.2006), Rumıniya prezidenti Trayan Basesku (12.10.2006) və M.V.Lomonosov adına MDU–nun rektoru V.A.Sadovniçiy (24.05.2007) Bakı Dövlət Universitetiinin Fəxri doktoru diplomuna layiq görülmüşlər.

Bakı Dövlət Universiteti TASİS - Tempus proqramı üzrə bir çox nüfuzlu Şərqi

Avropa universitetlərinin də iştirak etdiyi Avroasiya Universitetləri Assosiasiyası, Xəzəryanı ölkələr Universitetləri Assosiasiyası və Qara Dəniz hövzəsi ölkələri

Universitetləri Şəbəkəsində bu qurumlara daxil olan universitetlərlə fəal iştirak edir. Məsələn, 1999- 2002- ci illərdə Moskva Dövlət Universitetində BDU-nun 41 tələbə, magistrant və aspirantları təhsillərini ödənişsiz əsaslarla davam etdirmişlər. TASİS – Tempus proqramı üzrə Sankt-Peterburq Dövlət Universitetinin şərşünaslıq fakültəsi ilə böyük miqyaslı müqavilə hazırlanmış və həyata keçmişdir. MDU, Kiyev Milli Universiteti, Donetsk Milli Universiteti, Sankt-Peterburq Dövlət Universiteti ilə birgə dərsliklərin yazılmasında, tədris proqramlarının təkmilləşdirilməsi istiqamətində birgə işlər aparılır.

2002-ci ilin 11-14 sentyabr tarixlərində Bakı Dövlət Universitetində Təhsil Nazirliyinin böyük köməkliyi ilə Qara Dəniz Universitetləri Şəbəkəsinin (QDUŞ) II Konqresi keçirilmişdir və bu Konqresin qərarına əsasən Şəbəkəyə rəhbərlik 2 il müddətinə Bakı Dövlət Universitetinə həvalə olunmuşdur və BDU-nun rektoru akademik A.Məhərrəmov müvafiq olaraqŞəbəkənin prezidenti seçilmişdir. QDUŞ-un II Konqresinin Azərbaycanda müvəffəqiyyətlə keçirilməsi Azərbaycanın elm və təhsili haqqında beynəlxalq aləmdə də xoş əks-səda doğurmuşdur.

Xəzəryanı Ölkələr Universitetləri Assosiasiyasının İran və Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən iclaslarında BDU-nun nümayəndələri fəal iştirak etmiş, bu Assosiasiyanın Azərbaycan Texniki Universitetinin bazasında keçirilən konqresin hazırlanması və keçirilməsində mühüm rol oynamışdır.

2008-ci ilin oktyabr ayında rus mədəniyyətinin və tarixinin daha da dərindən öyrənilməsi, rus dili və ədəbiyyatının tədris planını təkmilləşdirmək məqsədilə, Bakı DövlətUniversitetində «Rus Dünyası» fondunun maliyyə dəstəyi ilə Rus Mərkəzi yaradılmışdır. Mərkəz rus dili və ədəbiyyatı, Rusiya tarixi, mədəniyyəti sahəsində müasir kitablar, internet resursları və texniki avadınlıqları ilə təchiz edilmişdir. Rus Mərkəzinin açılışında BDU–nun rektoru akademik Abel Məhərrəmov, Rusiya Federasiyasının səfiri V.İstratov, «Rus Dünyası» fondunun idarə heyətinin icraçı direktoru V.Nikonov iştirak etmişlər. V.Nikonov açılışda nəzərə çarpdırdı ki, Rus Mərkəzinin gələcək planlarında sərgi, seminar, yaradıcılıq gecələrinin keçirilməsi, rus dili kurslarının təşkili, həmçinin ali məktəblərdə rus dilini tədris edən müəllimlərin ixtisaslarının artırılması nəzərdə tutulur [16].

Yuxarıda şərh olunan məsələlər əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan – Şərqi Avropa mədəni əlaqələrinin inkişafında ali təhsil müəssisələri arasındakı əməkdaşlıq mü-hüm rol oynayan faktorlardan biridir. Hər şeydən əvvəl, ali məktəblər arasında əməkdaşlığın qurulması və inkişafı üçün zəruri siyasi – hüquqi baza yaradılmışdır. Belə bir qənaətə gəlmək olar ki, müasir mərhələdə ali məktəblər arasında əməkdaşlıq ildən ilə dərinləşmiş və genişlənmişdir. Bunların içərisində Bakı Dövlət Universiteti xüsusilə diqqəti cəlb edir. BDU-nun beynəlxalq fəaliyyətində Rusiyanın, Ukraynanın, Belarusun, Polşanın və Rumıniyanın ən nüfuzlu ali təhsil və elmi müəssisələri ilə ikitərəfli əməkdaşlıq mühüm və aparıcı yer tutmuşdur. BDU və tərəfdaş universitetlərmüəllim, elmi əməkdaş, aspirant, magistr və tələbələrin mübadiləsi, müəllim və elmi işçilərin ixtisaslarının artırılması; qabaqcıl tədris metodları sahəsində təcrübələrin mübadiləsi; elmi əməkdaşlığın yaradılması, elmi nəşrlərin, metodik material və müxtəlif faydalı sənədlərin mübadiləsi;müştərək tədqiqatlar, ikitərəfli birgə elmi simpozium, seminar və konfransların təşkili və başqa istiqamətlərdə böyük nailiyyətlər əldə etmişlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan beynəlxalq aləmdə. II c. Bakı: 1997, 761 səh.
2. Məmmədov H.N. Bolqarıstan tarixi //Dərslik. Bakı: 2009, 272 səh.
3. Məmmədov H.N. Ukraynanın müasir tarixi (XX əsrin sonları - XXI əsrin əvvəlləri) // Dərs vəsaiti. Bakı: 2009, 180 s.
4. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: 2000, 368 s.
5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti // Dərslik.Bakı: 2005, 752 c.
6. Чернявский С.И.Новый путь Азербайджана. М.: 2002, 352 s.
7. Azərbaycan Respublikası və Rusiya Federasiyasının Bakı Bəyannaməsi// Azərbaycan, 10 yanvar, 2001.
8. Раджабли А.А. Национальные интересы и международная безопасность (анализ внешнепо-политического поведения). Баку: 2004, 400 s.
9. Московская декларация Российской Федерации и Азербайджанской Республики. М.: Кремль, 6 февраля 2004 года // Азербайджан–Россия: саммит в Москве. Баку: 2004, 27 s.
10. Təhsil sahəsində beynəlxalq əməkdaşlığın hüquqi bazası // http: // www. edu. gov. az / view. php? lang =az&menu=127.
11. Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələri http: // bsu. edu. Az / az / content / bdunun _beynəlxalq_əlaqələri.
12. Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr şöbəsinin cari arxivi.
13. Bakı DövlətUniversitetinin Konsul – Protokol şöbəsinin 2003–cü il üçün Hesabatı http: // nanocenter. bsu. edu.az/az/.
14. 2007-ci ildə BDU əməkdaşlarının beynəlxalq proqramlarda iştirakı // http: // eth. bsu. edu. az /az/content / 2007.
15. BDU-da Rus Mərkəzi açıldı // Azərbaycan, 30 noyabr 2008.
16. http://www.mfa.gov.


## РОЛЬ МЕЖВУЗОВСКОГО СОТРУДНИЧЕСТВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНО-ВОСТОЧНОЕВРОПЕЙСКИХ КУЛЬТУРНЫХ СВЯЗЕЙ (на примере БГУ)


**Г.Н.МАМЕДОВ**


### РЕЗЮМЕ


Статья посвящена роли межвузских сотрудничеств в развитии культурных отношений Азербайджана со странами Восточной Европы.

Заключенные межгосударственные и отраслевые двухсторонные соглашения и договоры между Азербайджаном и странами Восточной Европы создали основательную юридическую базу дальнейшего развития взаимных отношений во всех сферах культуры.

Наряду свыше перечисленными договорами и соглашениями, регулирующими азербайджано-восточноевропейского сотрудничества в области науки и образования, существуют целый ряд соглашений, заключенных между различными высшими учебными заведениями Азербайджана и восточноевропейскими странами. Одним из основных вузов Азербайджана является Бакинский Государственный Университет, который осуществляет двустороннее сотрудничество с ведущими университетами России (Московский государственный университет, Московский государственный

институт (университет) международных отношений, Санкт-Петербургский государственный университет и т.д.), Украины (Институт социальных наук им. Гейдара Алиева, Киевский национальный университет им. Т.Шевченко, Днепрепетровский национальный университет, Львовский национальный университет им. И.Франко и т.д.), Белоруссии (Белорусский государственный университет), Польши (Варшавский университет),Румынии (Университет Констанца-Овидиуса, Бухарестский университет, Плоштинский нефтегазовый университет, Национальный Институт Плазмы и адиационной Физики) и др. С указанными университетами ведется сотрудничество в различных направлениях(пропаганда и распространение азербайджанского языка и литературы, деятельность профессорско-преподавательского состава БГУ научно-учебных центрах, взаимное обучение студентов, магистрантов и аспирантов в университетах Азербайджана и восточноевропейских стран и т. д.)

## ROLE OF INTERUNIVERSITY COOPERATION IN DEVELOPMENT AZERBAIJAN–EASTERN EUROPE CULTURAL CONNECTIONS (on example BSU)

**H.N.MAMMADOV**

### SUMMARY

Azerbaijan – Eastern Europe science and education relations are growing in the form of joining to international and regional education programmers, educational cooperation.The higher school of Azerbaijan””” has been holding relations with many Universities of the Eastern Europe region and these relations are being continued nowadays. There were signed documents meaning the development of the relationship between Azerbaijan and Eastern Europe republics in the field of science and educational cooperation includes the agreement signed between the Ministries of Education of Azerbaijan and Eastern Europe republics.

Baku State University has bilateral collaboration with Moscow State University, Moscow State International Relations Institute, Saint-Petersburg State University of Russia; BelorussiaStateUniversity; Social Sciences Institute named after Heydar Aliyev, Named after T.Shevchenco Kiyev National University, Doneck National University, Dnepropetrovsk National University, Named after I.Franko Lvov National University of Ukraine; Warsaw UniversityPoland;Konstansa-Ovidius University, Bucharest University, Ployeshti Oil and Gas University, Bucharest National University on Laser, Plasma and Radiation Physics Romania and other universities Eastern Europe.The cooperation is based on agreements between the universities and embraces different exchange programs for teaching staff and students, collaborative academic researches, conducting, conferences,symposia, seminars, professional retraining of specialists and students, informational exchange and exchange of scientific and methodical literature. According to the bilateral cooperation agreements the students of Baku State University study at the Moscow State of Russia, , Named after T.Shevchenko Ukrainian National University, Named after Heydar Aliyev Social Sciences Institute and Named after A.Arbuzov Organic and Physics Chemistry Science Center of Ukraine.